# "Dünyadan keçən Nazim və Nazimdən keçən dünya"

**Dekabrın 20-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində XX əsr dünya ədəbiyyatının böyük şairlərindən olan Nazim Hikmətin anadan olmasının 120 illik yubileyinə həsr olunan "Dünyadan keçən Nazim və Nazimdən keçən dünya" mövzusunda respublika elmi konfransı keçirilib.**

Tədbiri muzeyin baş direktoru akademik Rafael Hüseynov açaraq Nazim Hikmətin təkcə türk xalqının deyil, bütün Şərq xalqlarının poeziyasına təsir göstərdiyini bildirib, şairin həyat və yaradıcılıq yolunun Azərbaycanla bağlı məqamlarına diqqət yetirib.

"Azərbaycanın, türklüyün və dünyanın Nazim Hikməti" mövzusunda məruzəsini təqdim edən Rafael Hüseynov ədibin böyük şair olaraq ümumbəşəri ideyalara xidmət etdiyini, yaradıcılığı ilə zalımlara, istismara qarşı çıxış etdiyini söyləyib. O, müəllifin ilk əsərlərindən olan "Günəşi içənlərin türküsü" şeir kitabının 1928-ci ildə Bakıda nəşr edildiyini bildirib.

Baş direktor qeyd edib ki, Nazim Hikməti tanıyanlar onun sıradan bir insan deyil, dahi olduğuna heç zaman şübhə etmirdilər. Həyatının böyük hissəsini qürbətdə yaşamış böyük şair bütün varlığı ilə hər zaman Türkiyəni sevmiş və daim doğma vətəninin həsrətini çəkmişdir.

"Nazim Hikmət çox müsibətlər, zillətlər görməsinə baxmayaraq, xoşbəxt bir insan idi ki, onun düşündüklərini, söylədiklərini anlayan bir ölkə – Azərbaycan var idi", – deyə məruzəçi bildirib. Akademik Rafael Hüseynov şairin Moskvada yaşadığı illərdə tez-tez Bakıya gəldiyini, ədibin Azərbaycan ədəbiyyatına, o cümlədən Sovet ədəbiyyatına ciddi təsir göstərdiyini qeyd edib. O, həmçinin nazimşünaslığın təməlini qoymuş, Nazim Hikmət dühası ilə əlaqədar qiymətli əsərlərin müəllifi olmuş Əkbər Babayevin də xüsusi xidmətlərindən bəhs edib.

Muzeyin baş direktoru görkəmli şair Nazim Hikmətin ömrünün 28 ilini həbsxanalarda keçirməsinə baxmayaraq, ömrünə "şeir" adlı böyük bir dünya sığdırdığını diqqətə çatdırıb. Bildirib ki, şairin qələmi, sözü, duyğuları, düşüncələri hər zaman ona sadiq olub və şair həmişə sözün doğrusunu deməyə yönəlmiş bir insan olub.

Daha sonra konfrans işini bölmə iclasları ilə davam etdirib. İclaslarda tarix elmləri doktoru Tahirə Həsənzadənin "Xalq yazıçısı Anarın böyük Nazim Hikmət sevgisi", filologiya elmləri doktoru, professor Şəfəq Əlibəylinin "Nazim Hikmət şeirlərində "su" konseptinin ifadə vasitələri", filologiya üzrə fəlsəfə doktoru, dosent Əsmətxanım Məmmədovanın "Azadlıq və bərabərlik carçısı – Nazim Hikmət", Gəncə Dövlət Universitetinin baş müəllimi Cahan Ağamirovun "Nazim Hikmət poeziyasında vətənpərvərlik motivləri" və digər mövzularda məruzələr dinlənilib.



Tədbirdə görkəmli şairin həyat və fəaliyyətini, onun Azərbaycan səfərlərini özündə əks etdirən foto-slayd nümayiş olunub.

**Qabil YUSİFOĞLU,**
**"Xalq qəzeti"**